

# Mədəni irs soyqırımının arxeocoğrafiyası

*Münaqişə və zorakı köç proseslərinin ən ciddi fəsadlarından biri kollektiv yaddaşın daşıyıcısı olan maddi-mədəni irsin sıradan çıxarılmasıdır. Bu gün Ermənistanın hazırkı sərhədləri daxilində azərbaycanlıların əsrlər boyu yaşadıqları Qərbi Azərbaycan əraziləri bu baxımdan xüsusi tədqiqat obyektinə çevrilib. Etnik kimliklə məkan arasında tarixi bağlılığı sübut edən abidələrin, xüsusilə qəbiristanlıqların məqsədyönlü şəkildə dağıdılması Ermənistanın xalqımıza qarşı mədəni soyqırımıdır.*




Azərbaycanın tarixi torpaqları üzərində yaradılmış Ermənistan dövləti zaman-zaman ölkəmizin ərazi bütövlüyünə qarşı məqsədli siyasət həyata keçirərək etnik təmizləmə, soyqırımı və müharibə cinayətləri kimi insanlıq əleyhinə əməllərə əl atmışdır. Bu siyasətin hədəfi Qərbi azərbaycanlıların qovulması və bu ərazilərin etnik baxımdan homogenləşdirilməsi olmuşdur. Sovet hakimiyyəti dövründə də bu siyasət müxtəlif mərhələlərdə davam etdirilmişdir.

1918-1920-ci illərdə bu rəqəm daha da artmış, 320 min azərbaycanlı deportasiya və soyqırıma məruz qalmış, yalnız Zəngəzur qəzasında 10 min 68 nəfər qətlə yetirilmişdir. 1947-1953-cü illərdə isə SSRİ Nazirlər Sovetinin qərarına əsasən Ermənistan ərazisindəki 26 rayondan və İrəvan şəhərindən 150 min azərbaycanlı zorla köçürülmüş, əmlakları talan edilmişdir. 1987-1991-ci illərdə sonuncu kütləvi deportasiya zamanı Ermənistanın 24 rayonu üzrə 277 yaşayış məntəqəsində, o cümlədən 12 şəhər, 11 qəsəbə və 254 kənddə yaşayan 300 min nəfər azərbaycanlı doğma yurdlarından qovulmuş, 216 nəfər vəhşicəsinə qətlə yetirilmişdir.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Qərbi Azərbaycan həqiqətlərinin tədqiqi istiqamətində əsaslı işlər görülmüşdür. Məhz Ulu Öndər ilk dəfə Azərbaycanın qərb sərhədlərini, hazırda Ermənistan Respublikasının yerləşdiyi əraziləri tarixi və mənəvi əsaslara söykənərək Qərbi Azərbaycan kimi siyasi leksikona qaytarmış, bəyan etmişdir ki, bugünkü Ermənistan ərazisinin böyük hissəsi əzəldən azərbaycanlıların yaşadıqları doğma yurdlardır. Heydər Əliyevin bu çıxışlarından sonra Qərbi Azərbaycanda qədim dövrlərdən 1991-ci ilə qədər yaşamış azərbaycanlıların sosial, siyasi və mədəni inkişaf yolunun öyrənilməsi üçün nəzəri və təcrübi əsaslar formalaşdırılmışdır. Bu siyasətin davamı kimi Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə azərbaycanlıların doğma torpaqlarına ləyaqətli və təhlükəsiz qayıdışının hüquqi və tarixi əsaslarını elan etmişdir.

Ölkə başçısının strateji məzmunlu çıxışlarından sonra müasir elmi yanaşmalara əsaslanan "Qərbi Azərbaycan İrsi" tədqiqat seriyasının nəşrinə başlanılmışdır. Bu elmi təşəbbüslə tarixi ədalətin bərpasına xidmət edən faktların sistemli və sənədli şəkildə toplanması, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması qarşıya məqsəd qoyulmuşdur. Azərbaycan, ingilis və rus dillərində nəşr olunan bu seriyanın ilk cildi - "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabat adlanır. Beş hesabatdan ibarət olacaq seriyanın birinci, ikinci və üçüncü cildləri Ermənistan dövləti tərəfindən Qərbi Azərbaycanda məqsədli şəkildə dağıdılmış qəbiristanlıqlara həsr olunacaq. Dördüncü cilddə məscidlər, beşinci cilddə isə pirlər və türbələrin əvvəlki və sonrakı vəziyyətləri müqayisəli şəkildə sənədləşdiriləcək. Araşdırma nəticəsində indiki Ermənistan ərazisində - Qərbi Azərbaycanda məqsədli şəkildə məhv edilmiş 201 azərbaycanlı qəbiristanlığı barədə sənədli mənbəyə çevriləcək genişhəcmli kitab hazırlanmışdır. Bu qəbiristanlıqların tarixi mövcudluğu bu gün yüzlərlə xəritə, arxiv sənədləri, foto və videomateriallar, şahid ifadələri və müasir peyk görüntüləri ilə təsdiq olunur. 1987-ci ildən başlayaraq 1991-ci ilin sonlarına qədər davam edən sonuncu deportasiya dalğasından sonra bu məkanlar vandalizmə məruz qalmışdır.

Tədqiqatın ideya və ön söz müəllifi, layihə rəhbəri Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri, professor Ədalət Vəliyevdir. Kitabın müəllifləri Qərbi Azərbaycan İcmasının (QAİ) sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli və tarixçi Səbuhi Hüseynovdur. 896 səhifədən ibarət olan kitab Qərbi Azərbaycan İcmasına köçürülmüş ianələr hesabına "Şərq-Qərb" ASC-nin mətbəəsində çap edilmişdir. İki hissədən ibarət kitabın I hissəsi "Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabat, II hissə isə "Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" hesabatın materialları adlanır.

Tədqiqat çərçivəsində məsafədən zondlama metodundan və normallaşdırılmış fərdi bitki örtüyü indeksinin (NDVI) təhlilindən geniş istifadə olunmuşdur. Xüsusilə, ABŞ-ın XX əsrin ikinci yarısına aid hərbi peyk proqramları çərçivəsində çəkilmiş və bu gün ABŞ Daxili İşlər Departamentinin Geoloji Xidməti nəzdində fəaliyyət göstərən Yer Resurslarının Müşahidə və Elm Mərkəzi tərəfindən arxivləşdirilən görüntülər araşdırmaya daxil edilmişdir. Bununla yanaşı, müasir yüksək ayırdetməli peyklərdən əldə edilən təsvirlər də kitabda vizual sübut materialı kimi təqdim olunmuşdur. Tədqiqat dünyada tanınmış "Chicago-17" üslubu əsasında tərtibatla, multispektral və geohəssas təhlil metodları ilə zənginləşdirilmişdir. Bu yanaşma həm elmi obyektivliyi təmin etmiş, həm də beynəlxalq akademik dairələrə təqdim olunacaq hüquqi sübutların əsasını formalaşdırmışdır. Kitabda ABŞ Geoloji Xidmətinin EROS (Earth Resources Observation and Science) Mərkəzindən əldə edilmiş Landsat-4 və Landsat-5 peyklərinin TM (Thematic Mapper) sensorları ilə çəkilmiş multispektral təsvirlər əsasında landşaft transformasiyaları və bitki örtüyündəki dəyişikliklər təhlil olunmuşdur. Xüsusilə qırmızı və infraqırmızı spektral diapazonlarda aparılan analizlər nəticəsində torpaq örtüyündə baş verən dəyişikliklər və qəbiristanlıqların landşaftındakı pozuntular aşkarlanmışdır.

1988-ci ilin sonlarında erməni zorakılığı səbəbindən Ağkilsə kəndinin azərbaycanlı əhalisi doğma yurdlarını tərk etməyə məcbur olmuşlar. Sonrakı illərdə baş verən dəyişiklikləri müəyyən etmək üçün 10 oktyabr 1983-cü il tarixli KH-9 Hexagon peyk təsvirləri və 11 fevral 2005-ci il tarixli görüntülər müqayisə olunmuşdur. Tədqiqat nəticəsində məlum olmuşdur ki, 0.425 hektar sahəni əhatə edən qəbiristanlıqda yerləşən Aşıq Ələsgərin qəbirüstü abidəsi 2005-ci ilə qədər tamamilə məhv edilmişdir. Qəbiristanlığın bir hissəsində, təxminən 1200 kvadratmetrlik ərazidə abidələrin salamat qalmasına baxmayaraq, digər hissələr sonradan müxtəlif məqsədlərlə istifadə olunmuşdur. 2016-cı ilə aid peyk görüntüləri və sonrakı illərin fotomaterialları da qəbiristanlığın kənd təsərrüfatı sahəsinə çevrildiyini, Aşıq Ələsgərin qəbirüstü abidəsinin tamamilə məhv edildiyini göstərir.

Kitabda 1989-2009-cu illərdə məhv edilən Amasiya rayonunun Oxçuoğlu kənd qəbiristanlığı haqqında bildirilir ki, XVII əsrdən məlum olan kənddə 1914-cü ildə 983 nəfər azərbaycanlı (qaraqalpaq) yaşamışdır. 1988-ci ilin noyabrında Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində kəndin 1552 nəfərlik azərbaycanlı əhalisi zorla deportasiya olunmuş, 1991-ci ildə adı dəyişdirilərək "Voxci" adlandırılmışdır. Kəndin qədim qəbiristanlığı 4.32 hektar sahədə yerləşirdi. Burada qoç və at fiqurlu qəbirüstü abidələr, eləcə də azərbaycanlılar tərəfindən müqəddəs sayılan "Ürqiyyə xanımın ocağı" adlı pir vardı. 1982-ci il peyk təsvirləri qəbiristanlığın hasarla əhatələndiyini və abidələrin mövcudluğunu təsdiqləyir. Azərbaycanlı əhalinin deportasiyasından sonra 1982 və 2009-cu il tarixli peyk təsvirləri əsasında aparılmış təhlillər göstərir ki, qəbiristanlıq bu dövrdə tamamilə dağıdılmış, "Ürqiyyə xanım ocağı" yerlə-yeksan edilmişdir.

Amasiya rayonunda yerləşən Güllübulaq kəndi də (tarixi adı Qarapapaq Güllübulağı) bir zamanlar Şörəyel bölgəsinin azərbaycanlılar yaşayan ən böyük kəndlərindən biri idi. 1988-ci ilin noyabrında Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə nəticəsində Güllübulağın 2875 nəfərlik əhalisi zorla deportasiya edilmişdir. 4 iyul 2006-cı il tarixində Ermənistan Milli Məclisi kəndin adını dəyişdirərək "Byurakn" adlandırmışdır. Güllübulaq kəndinin yeni qəbiristanlığı 1938-1940-cı illərdə salınmış və təxminən 1.7 hektarlıq ərazini əhatə etmişdir. Lakin 1982-ci və 2011-ci il tarixli peyk təsvirlərinin müqayisəli təhlili nəticəsində qəbiristanlığın 1989-2011-ci illər arasında sistemli şəkildə dağıdıldığı müəyyən edilmişdir.

Kitabda Dərəçiçək mahalında yerləşən, "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Altuntaxt yaşayış məskəni ilə əlaqələndirilən tarixi ərazi 1590-cı il Osmanlı "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Qaraman bəyə aid yaylaq kimi göstərilir və Zəngibasar mahalının Mehmandar kəndi sakinlərinin istifadə etdiyi yaylaq yeri kimi qeyd olunur. XVIII əsrdə kənd iki hissəyə - Yuxarı və Aşağı Altuntaxta bölünmüşdür. Lakin 1826-1828-ci illər Rusiya-İran müharibəsindən sonra hər iki kənd əhalisi buranı tərk etmiş və ərazi xarabalığa çevrilmişdir. XIX əsr mənbələri isə Altuntaxt yaylağının Mehmandar kənd sakinləri tərəfindən istifadə edildiyini göstərir. 1982-ci il tarixli KH-9 Hexagon peyk təsviri əsasında aparılan tədqiqatlarda Altuntaxt qəbiristanlığının 0.41 hektar ərazidə yerləşdiyi və burada bir neçə qəbirüstü abidənin mövcud olduğu göstərilmişdir. 15 oktyabr 2023-cü il tarixli peyk təsvirində qəbiristanlığın ümumi strukturunun qorunub saxlanıldığı təsbit olunmuşdur. Ərazinin çətin keçilən dağlıq sahədə yerləşməsi və uzaq məsafədə olması, antropogen təsirlərdən qorunmasını təmin etmişdir. Bu tarixə qədər ərazidə təxminən 150 qəbirin izi müəyyən edilmişdir.

Uluxanlı kəndinin adı mənbələrdə XVI əsrin sonlarından "Uluxanbəyli qışlağı" kimi keçir. Osmanlı, Rusiya və yerli statistik sənədlərdə kəndin əhalisi "müsəlman", "tatar" və ya "azərbaycanlı" olaraq qeydə alınır. Bildirilir ki, 1827-ci ildə rus qoşunlarının İrəvan xanlığına hücumu zamanı kəndin 600 ailəsi Bəyazidə sığınmağa məcbur qalsa da, 1828-ci il Türkmənçay müqaviləsindən sonra geri qayıdaraq kəndi bərpa etmişlər. 1914-cü ilə aid "Qafqaz təqvimi"ndə burada 3200 azərbaycanlının yaşadığı qeyd olunur. 1920-ci illərdən etibarən Uluxanlı Sovet Ermənistanının tərkibində qalmış və əvvəlcə Nərimanlı, daha sonra isə Zəngibasar, 1971-ci ildə isə Masis adlandırılmışdır.

1988-ci il iyunun 17-də kəndə hücum edən erməni silahlıları 3000-dən artıq azərbaycanlını zorla qovmuş, qısa müddət Rəncbər kəndində sığınacaq tapan əhali noyabr ayında Azərbaycana köçmək məcburiyyətində qalmışdır. Uluxanlıda üç müsəlman qəbiristanlığı mövcud olmuşdur. Onlardan ən qədimi Ağhəmzəli kəndi yaxınlığında yerləşmiş və sahəsi 4 hektardan çox olmuşdur. Burada at heykəlli qəbirüstü abidələr, günəş və rəmzi fiqurların təsvir olunduğu daşlar var idi. Qəbiristanlığın vəziyyəti müxtəlif dövrlərə aid peyk təsvirləri ilə sənədləşdirilmişdir. 1967-ci il KH-7 Gambit peyk təsvirinə əsasən, qəbiristanlıq 10.79 hektar sahədə yerləşmişdir. Qərb hissəsində mərmər hasilatı aparılıb, ərazidə 0.334 hektarlıq süni göl meydana gəlib. 1980-ci il KH-9 Hexagon peyk görüntülərində isə qəbiristanlığın mərkəzində dəyirman və ya zavod binasının inşa edildiyi müşahidə olunur. Sonuncu 21 aprel 2004-cü il tarixli peyk görüntüləri ərazinin tamamilə dağıdılaraq inşaat sahəsinə çevrildiyini göstərir. Bu faktlar həm də azərbaycanlıların bölgədəki varlığının, tarixi irsinin silinməyə çalışıldığını sübut edir.

Nəticə etibarilə, kitabda təsvir olunan onlarla qəbiristanlığın 70 faizdən çoxunun məqsədli şəkildə dağıdılması bütöv bir xalqın tarixi yaddaşını silmək cəhdidir. Ermənistanın bu vandallığı soydaşlarımızın Qərbi Azərbaycanın hər qarışında əsrlərlə yaşadığını sübut edən izləri silməyi hədəfləsə də, faktları dünya ictimaiyyətinə çatdırmaq, dağıdılmış mədəni irsi sənədləşdirmək və qorumaq üçün sistemli tədqiqatlar aparılır. Qərbi azərbaycanlılar əmindirlər ki, bir gün bu qədim torpaqlara qayıdacaq, o əraziləri dirçəldəcək və itirilmiş yurd yerlərini yenidən tarix səhnəsinə qaytaracaqlar.

**Ləman TƏHMƏZ,**
**"Respubllika".**